# Ağdam əvvəlkindən də gözəl olacaq

Ağdam şəhərinin baş planının məhz müstəqillik günündə təsdiq olunmasının rəmzi mənası var. Otuz ildən sonra – düşməni diz çökdürüb Ağdamı ağdamlılara qaytaran möhtərəm Prezidentimizin qeyd etdiyi kimi, “ Bu gün burada olmağımız bir daha müstəqilliyimizin nə qədər güclü olmasını göstərir. Əgər biz güclü müstəqil dövlət qurmasaydıq, öz tarixi torpaqlarımızı işğalçılardan azad edə bilməzdik. Ancaq güclü Azərbaycan, müstəqil Azərbaycan, sözün əsl mənasında, müstəqil siyasət aparan Azərbaycan bu tarixi missiyanı şərəflə yerinə yetirdi. Ağdam şəhərinin bərpasının başlanğıcı bu gün baş verir”.

Möhtərəm Prezidentimizin “Əminəm ki, bütün nəzərdə tutulmuş planlar baş plan əsasında icra ediləcək və Ağdam şəhəri yenidən qurulacaq” qətiyyətli fikri hər birimizin gələcəyə olan inamını daha da artırdı, dogma ata- baba yurdumuza tezliklə qayıdacağımıza əminlik yaratdı.

Mən 30 ildən sonra dogma kəndimizə qayıdanda evimizin, həyət – bacamızın viran qoyulduğunu gördüm və bir o qədər də təəccüblənmədim. Çünki bu müddət ərzində dəfələrlə erməni barbarlığının, vəhşiliyinin, qəddarlığının şahidi olmuşduq. Bu dağıntılar da erməni faşizminin növbəti vəhşiliyi idi. Artıq bu qəddarlığa, dağıntılara son qoyuldu. Möhtərəm Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin düşünülmüş siyasəti, polad iradəsi düşmənin hegemonluğuna birdəfəlik son qoydu. İndi həmin ərazilərdə abadlıq-quruculuq, bərpa işlərinə başlanılıb. Bu əmin-amanlığı xalqımıza bəxş edən, canlarını torpaqlarımızın azadlığı uğrunda qurban verən mərd oğul və qızlarımzın – şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi, onların ruhuna dualar oxundu. Allah bütün şəhidlərimizə rəhmət eləsin!

***28 May – Respublika Günü – müstəqilik bayramı hər bir azərbaycanlı üçün unudulmaz bayramdır. Lakin həmin gün biz ağdamlılar üçün ikiqat sevincli oldu. Məhz həmin gün dövlətimizin başçısı, qalib sərkərdə Prezident İlham Əliyev Ağdam rayonuna səfər edərək bu əziz bayramı orada qeyd etdi və ziyalıların, tanınmış ictimai xadimlərin iştirakı ilə Ağdam şəhərinin baş planını təsdiq etdi.***



Ağdam rayonunun bir hissəsi işğal altında olanda, rayonun mərkəzi Quzanlı qəsəbəsində yerləşdirilmişdi. Bu müddət ərzində möhtərəm Prezidentimiz doqquz dəfə Ağdamda olmuş, işğal edilməmiş kəndlərin inkişafı, əhalinin məşğulluğunun artırılması, aqrar sahənin inkişafını daim diqqətdə saxlamış və regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrası nəticəsində Ağdam rayonunun quruculuqla bağlı inkişaf planları təsdiqlənmişdir. Həmin dövrdə bir sıra sosial layihələr icra edildi. Orta ümumtəhsil məktəbləri, Muğam Mərkəzi, uşaq xəstəxanası, mərkəzi xəstəxana, Olimpiya Mərkəzi və digər infrastruktur layihələrinin icrası reallaşdırıldı. Qazlaşdırma, elektrik enerjisi, su ilə təchizat təmin edilmiş, 150-dən çox artezian quyusu qazılmışdır. Dövlətimizin başçısı dogma ata-baba yurdlarından didərgin salınmış məcburi köçkünlərlə hər dəfə görüşəndə qətiyyətlə deyirdi ki, torpaqlarımız, o cümlədən, Ağdam şəhəri azad olunacaq. Ondan sonra həmin ərazilərdə əvvəlkindən də yaxşı şərait yaradılacaq.

Budur, həmin gün yetişdi. Ata-baba yurdlarından didərgin salınmış həmyerlilərimiz artıq böyük qayıdışa hazırdır. Ağdam şəhərinin baş planının təsdiqi bunu bir daha sübut etdi. Möhtərəm Prezidentimizin “Biz elə bir şəhər quracağıq, elə bir Ağdam quracağıq ki, bütün dünya üçün örnək olacaqdır” fikirləri düşmənə göz dağı oldu.

***Səhər İSMAYILOVA,***
***Bakı Şəhər İcra Hakimiyyəti Başçısı Aparatının sektor müdiri, politoloq***

Xalq qəzeti 2021.- 3 iyun.- S.4.